# İşsizlikdən sığorta fondunun 2018-ci il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2018-ci il büdcəsinin gəlirləri 89 040 000,0 manat, xərcləri 89 040 000,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2018-ci ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | **Gəlirlərin mənbələri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 89 020 000,0 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 17 726 212,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 17 726 212,0 |
| 1.3. | digər sığortaedənlər | 53 567 576,0 |
| 2. | Sair gəlirlər | 20 000,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, İşsizlikdən sığorta fondunun 2018-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | **Xərclərin istiqamətləri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 1. | İşsizliyə görə sığorta ödənişləri | 33 478 000,0 |
| 2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 1 613 000,0 |
| 3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 1 150 000,0 |
| 4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 120 000,0 |
| 5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 1 788 000,0 |
| 6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 35 802 000,0 |
| 7. | Sığortaolunanların əməkhaqqının müəyyən hissəsinin müəyyən müddətə (3 ay, 6 ay, 9 ay, 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsi | 1 380 000,0 |
| 8. | Məşğulluq xidməti orqanının aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri | 13 709 000,0 |

**Maddə 4. İşsizlikdən sığorta haqlarının daxil olmasına nəzarət və işsizlikdən sığorta fonduna köçürülməsi**

Müvafiq icra hakimiyyəti orqanı sığorta haqları üzrə hər ay üçün toplanmış vəsaitləri növbəti ayın 1-dək işsizlikdən sığorta fonduna köçürür.

**Maddə 5. Qalıqlardan istifadə**

İlin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaitləri növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 6. Qanunun qüvvəyə minməsi**

Bu qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2017-ci il*